Ədalət. S.7.

**Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

**№ 154 (2002) 10 oktyabr 2019-cu il**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

# Xurşidbanu Natavan həyatı və yaradıcılığı fonunda

**Şəxsən mənə elə gəlir ki, hər bir tarixi-ədəbi şəxsiyyətin tərcümeyi-halı o şəxsin mənsub olduğu xalqın və torpağın tərcümeyi-halının tərkib hissəsidir. Əlbəttə ki, böyük zaman kəsiyində kiçik zaman kəsikləri aylar və illər şəklində deyil, yüzilliklər şəklində daha aydın görünür. Bu görünən yüzilliklərdə xalqın və torpağın nələr çəkdiyini görməmək mümkün deyildir.**

Xalqımızın və torpağımızın XIX yüzil kəsiyindən görünüşünə o dövrün tarixi -ədəbi simalarının şəxsində nəzər saldıqda A.Bakıxanov, Q.Zakir, M.Ş.Vazeh, İ.Qutqaşınlı, M.F.Axundov, S.Ə.Şirvani və başqaları ilə bir sırada "Xan qızı" adı ilə məşhur olan Xurşidbanu Natəvanın da öz yeri olduğunu görürük.

X. Natəvan dünyaya gələndə Türkmənçay müqaviləsindən 4 il keçirdi. Sıralanmasına görə, Kürəkçay müqaviləsindən (14.05. 1805) sonra Gülüstan (12.10.1813) və Türkmənçay (10.02.1828) müqavilələri bütöv Azərbaycanı cənuba və şimala ayırmış, Şimali Azərbaycan qəti olaraq Rusiyaya ilhaq edilmişdi. Bəlkə də elə buna görə özünü ikiyə bölünmüş vətəni kimi arxasız və himayəsiz hiss edən Xurşidbanu bəyim özünə"Natəvan" - "köməksiz" , "tavansız", "hamisiz" sözünü təxəllüs götürmüş, ata tərəfdən əmisi nəticəsi Qeysu xanım demişkən, bəzən də, "Natamam" təxəllüsü ilə (Bax. Cəmil Tağıyev. Xan qızı. 120 s. Bakı, "Şur", 2011. Səh. 5-6) şeirlər yazmışdır. Əlbəttə ki, vətən tam olmayanda vətəndaş da tam olmur-V.As.

O, 1726-cı ildə təvəllüd edib, 1760-cı ildən 1806-cı ilin iyun ayının 12-nə dək Qarabağın xanı olmuş İbrahimxəlil xan Cavanşirin nəvəsi, 1775-ci il təvəllüdlü (internet məlumatının ruscasında onun 1763 və ya 1772-ci illərdə doğulduğu göstərilmişdir-V. As.) Mehdiqulu xan Cavanşir Mehdiqulu xan Cavanşirin qızıdır. Natəvanın anası Gəncəli Cavad xanın oğlu Uğurlu bəyin qızı Bədircahan bəyim olmuşdur.

Natəvanın atası Mehdiqulu xan Cavanşir 1805-ci ildə Kürəkçay müqaviləsinin bağlanmasında iştirak etmiş, general-mayor rütbəsi almışdır. 12 iyun 1806-cı ildə atası İbrahimxəlil xan öldürüldükdən sonra o formal şəkildə xan olmuşdursa da, erməni mənşəli general-leytenant Mirzəcan Mədətov tərəfindən sıxışdırılmağa başlamışdır. Rus hökümətinə arxayın olub Mehdiqulu xanı hər dəqiqə və hər yerdə sıxışdıran erməni general-leytenant Mirzəcan Mədətovun azğınlığı o dərəcəyə çatmışdır ki, Mehdiqulu xan 1822-ci ildə İrana qaçmışdır.

O, 4 il İranda yaşamış, 1826-cı ilin hərbi əməliyyatlarında İran tərəfdən Rusiyaya qarşı çıxmadığına görə ona Şuşada yaşamamaq şərti ilə vətənə qayıtmağa icazə verilmişdir.

Buna görə də, o, 1827-ci ilin may ayında Ağdama köçmüş, orada yaşamışdır. Bəlkə də vaxtı ilə çara qarşı çıxmadığı üçün, Qarabağda, qismən də olsa, əmin-amanlıq yaratdığı üçün o, çar tərəfindən 1838-ci il 30 oktyabr tarixdə "Həmayül nişanı" və "Hörmət fermanı" ilə (Bax. Mir Mehdi Xəzani. Kitabi- tarixi- Qarabağ (Azərbaycanca yazılmışdır) Bax. Qarabağnamələr, II kitab.480 s. Çox təəssüflər olsun ki, kitabın 2-ci səhifəsində səhifələrin sayı 450 rəqəmi ilə qeyd edilmişdir. Bakı, "Yazıçı", 1991. Səh. 202) təltif edilmişdir. Mehdiqulu xan Cavanşir 1845-ci ildə mayın 15-də vəfat etmiş, Ağdamın "İmarət" qəbirstanlığında (Bax.Yaşar Qarayev. Azərbaycan ədəbiyyatı:XIX və XX yüzillər. 740 s.Bakı, "Elm", 2002. Səh. 211) dəfn olunmuşdur. Atası vəfat edərkən Xurşidbanu 13 yaşlı bir qız idi və o çox



X. Natəvanın Şuşadakı evi

şeyləri başa düşürdü. Gələcəkdə özünə "Natəvan" təxəllüsünü götürməsi də ailəsinin və torpağının taleyi ilə bağlı bir məsələ idi.

Ailənin yeganə övladı, xanlığın yeganə vərəsəsi olduğu üçün ona sarayda "Dürrü-yekta" ("Yeganə dürr"), el içində isə "Xan qızı " deyirdilər. Natavan ilk təhsilini atasının himayəsində almış, xüsusi müəllimlər dini və dünyəvi elmlərdən, klassik şərq ədəbiyyatından və dillərindən ona dərs demişlər. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, X.Natəvanı bibisi Gövhər xanım baxıb böyütmüşdü. Gövhər xanımın anası Cəvahir xanım (1796-1888) isə Gürcü knyazı Abaşidzenin qızı idi.

Deməli X. Natəvanın damarlarında Qarabağ həzinliyi, Gəncə qüruru, Gürcü şuxluğu dolaşırdı - V.As. Maarifçi və xeyriyyəçi kimi tanınan Gövhər xanım qardaşı qızı Natəvana ilk təhsil vermiş, ona rəsmi, musiqini və şeiri sevdirmişdi. Atasının vəfatından sonra X. Natəvan Qarabağda formal olaraq xanlıq etmişdir. Elə bu ərəfələrdə Qafqaz hakimi M.S.Vorontsovun şəxsi göstərişi ilə xanlığın malikanə və torpaqlarının müəyyən hissəsi müsadirə edilərək dövlətin hesabına keçirilir. Malikanə və torpaqları qaytarmaq üçün anası Bədircahan bəyim qızı Natəvanı da özü ilə götürərək 1848-ci ildə Tiflisə şikayətə gedir. Tiflisdə M.S.Vorontsovun şəxsi yavəri, əslən kumuk olan Xasay xan Usmiyev (hazırkı yazılarda onun İsmiyev kimi təqdim edirlər-V.As.) onlara bu işdə yardım və vasitəçilik edir. Bu tanışlıq və canıyananlıq 1850-ci ildə 18 yaşlı X.Natəvanın Xasay xan İsmiyevə ərə getməsi ilə tamamlanır. Bu izdivacı siyasi gediş kimi qiymətləndirənlər də vardır.

Əvvəlcə mülkünün və torpaqlarının bir hissəsinin müsadirə edilməsi, sonradan Xasay xan Ismiyevin köməyi ilə onların geri qaytarılması, xan qızının ərə getməsi nəticəsində bəzi hüquqların kişiyə keçməsi Qarabağda dövlətçilik hissinin öldürülməsi demək idi-V.As.

***

1851 və 1852-ci illərdə Tiflisdə və Dağıstanda yaşayan Natəvan xəstələnib vətənə qayıdır. Bu o dövr idi ki, "nəcabət və hüsnü - məlahətdən məada elm və kamalı ilə, .. təbii-şeiriyyəsi ilə, hər qism tərifi-təhsinə layiq" (Bax. Cəmil Tağıyev. Xan qızı. 120 s. Bakı, "Şur", 2011. Səh.413)

Natəvana Qarabağ şairləri və ziyalıları olmazın hörmət göstərirdilər, sağalması, əslində övladı olması üçün ona dualar edirdilər.

Qasım bəy Zakirin X.Natəvana yazdığı "Səni" rədifli qoşmasından bəhs edən F.Köçərli mətləbi belə açıqlayır: "... Ol vaxtı Xurşidbanunun bir müddət övladı olmayıbdır və bu barədə ol nəcibə qəmi - xiffət edib, övlad ümidi ilə özünə bir para müalicələr etdiribdir və xəstə (Bax. Firidun bəy Köçərli. Azərbaycan ədəbiyyatı. II cild.460 s. Bakı, "Elm", 1981. Səh.156) olubdur".

X.Natəvanı "Xoşbəxtlik bürcü" kimi dəyərləndirən Q.Zakir "Saraya yetmişində İshaqı verən Allahdan ona da övlad verməsini, "Hüseynin və Həsənin köməkçi olmasını" (Bax.Firidun bəy Köçərli. Azərbaycan ədəbiyyatı. I cild. 600 s. Bakı, "Elm", 1978. Səh.412) arzulayır:

**Ey bürci -səltənət, mahi ənvəri**
**Düşməyəsən görüm ziyadan səni.**
**Gecə-gündüz həqdən budur diləyim:**
**Hifz eləsin yaman bəladan səni. ,**

**Sipehri - bərinin hilalı sənsən,**
**Şərafətdə mələk misalı sənsən.**
**Gülşəni- xəlilin nihalı sənsən,**
**Barvər istərəm xudadan səni.**

**Çubi-Çini nədir, qibləsən, nəsən?**
**Təəccüb eylərəm bu əhvalə mən.**
**Dəstgirin olsun Hüseynü Həsən...**
**Fərağət olasan cəfadan səni.**

X.Natəvanı "barvər" - "barlı, bəhərli" istəyən Q.Zakir "tikilən evlərə" şairənin "atasının səbəb olduğunu" xatırlayaraq şeirini belə tamamlayır:

**Şikəstə Zakirə veribsiz əmək,**
**Əmək bilməyəni kor etsin nəmək!**
**Necə ki, baqidir həyatı, gərək**
**Unutmaya xeyir-duadan səni.**

M.F.Axundov (Bax. Firidun bəy Köçərli. Azərbaycan ədəbiyyatı. I cild.600 s. Bakı, "Elm", 1981. Səh. 448.) hicri 1271-ci il tarixdə Məhərrəm ayının ibtidasında (1853-cü ildə,"çox yerdə bu tarix 1854-cü il rəqəmi ilə qeyd edilir-V.As.) dostu Zakirə duzlu-məzəli bir məktub yazır.

**Qasım bəy, eşitdim yaxın olubsan,**
**Xan qızına, axır nədir bu rəftar?**

misraları ilə başlanan bu məktubda "yüz il gözəlləri imtahan edib, yenə də onlara etibar eyləyən, axşam-səhər Xan qızının otağında yeyib-içib, şirin-şirin söhbət edərək yastığının kənarını kəsdirən, amma bundan əzəl pərivəşlərdən şikayətlənən" Zakirə M.F.Axundov belə bir ərk ilə xəbərdarlıq edib, ona atəşdən kənarda durmağı məsləhət bilir:

**Xan qızı məhvəşdir, bilir el- aləm,**
**Məhvəşlər atəşdir, bizik əqli kəm.**
**Yüz il xidmət edə oda bir adəm,**
**Yenə düşən dəmdə ona, bil, yanar.**

**(ardı növbəti sayımızda)**

***Vaqif Aslan***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR